**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi ilə Avropa Birliyi Statistika Bürosu arasında xarici ticarət üzrə statistika mə'lumatlarının mübadiləsinə dair**

**S A Z İ Ş**

Bir tərəfdən gələcəkdə Dövlətstatkom adlandırılacaq Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və ikinci tərəfdən gələcəkdə Avrostat adlandırılacaq Avropa Birliyi Statistika Bürosu

1999-cu ilin iyul ayının 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq və əməkdaşlıq haqqında Sazişi (TƏS), xüsusilə Sazişin statistika sahəsində əməkdaşlığa dair 68-ci maddəsini qəbul edərək,

TƏS kontekstində statistika üzrə tərəflər arasında əməkdaşlığı, Azərbaycanda iqtisadi islahatlar prosesinə yardım və nəzarət edəcək, həmçinin fərdi sahibkarlığın inkişafına kömək göstərəcək düzgün statistik informasiya ilə vaxtında tə'min edilməni, statistik informasiya və mə'lumatların proqram-texnoloji müqayisəliliyini tə'min edəcək statistika sisteminin səmərəli inkişafını nəzərdə tutarag,

İstər beynəlxalq, istərsə də Birliyin metod, standart və təsnifatlarının harmonikləşdirilməsinin, xüsusilə mə'lumatlar bazasının yaradılması yolu ilə statistik informasiya mübadiləsinin təşkilinə olan tələbatın vacibliyini nəzərə alaraq aşağıdakılar üzrə razılığa gəlinmişdir:

Maddə 1: Əhatə

Tərəflər bu Sazişin müddəalarına uyğun olaraq xarici ticarət statistikası üzrə mə'lumatların mübadiləsi sahəsində əməkdaşlıq edirlər.

Maddə 2: Məqsədlər

Bu Sazişin statistika mə'lumatlarının mübadiləsi üzrə məqsədi aşağıdakıları əhatə edir:

- TƏS-ın yerinə yetirilməsi üçün statistik informasiya ilə tə'min edilməsi şəraitinin yaradılmasında Dövlətstatkoma lazımi informasiya yardımının göstərilməsi,

- Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında iqtisadi münasibətlərin formalaşmasına, nəzarət edilməsinə və qiymətləndirilməsinə dair informasiya ilə Avropa institutlarının və Avropa İttifaqının üzvü dövlətlərinin tə'min edilməsi və Avropa İttifaqı çərçivəsində ictimaiyyətə, işgüzar və digər iqtisadi sosial dairələrə təqdim ediləcək Azərbaycana dair statistik göstəricilərin hazırlanması.

<u>Maddə 3: Statistika mə'lumatları</u>

Bu Sazişlə əhatə olunmuş statistika mə'lumatları bu Sazişin ayrılmaz hissəsi olan 1-ci Əlavədə göstərilmiş formatda xarici ticarət üzrə ətraflı mə'lumatlardan ibarətdir.

<u>Maddə 4: Resurslar</u>

Bu Sazişin yerinə yetirilməsi üçün lazım olan maliyyə vəsaitləri TACIS programı çərçivəsində Dövlətstatkom ilə Avrostat arasında yaradılmış Birgə Statistik Əməkdaşlıq Proqramından götürüləcək.

<u>Maddə 5: Proseduralar</u>

Dövlətstatkom və Avrostat xarici ticarət üzrə 1-ci Əlavədə göstərilmiş mə'lumatların siyahısına uyğun olaraq pulsuz mə'lumat və nəşriyyat mübadiləsi edəcəklər.

Mə'lumat mübadiləsi kompüterlərin köməyi ilə rüblük əsasda həyata keçiriləcək.

Ölkələr arasında mə'lumat mübadiləsindən əsasən onların daxili məqsədləri üçün istifadə ediləcək. Geyd olunan mə'lumatların gələcəkdə nəşrlərdə istifadə edilməsi hər iki tərəfin razılığı və nəşrin mətnində müvafiq istinadlar edilir.

<u>Maddə 6: Qərarların qəbul edilməsi</u>

Tərəflər arasında əməli iş əlaqələri hər iki Tərəfin tə'yin etdiyi işçi hey'əti tərəfindən tənzimlənir. Bu Sazişin yerinə yetirilməsi və ona nəzarət üzrə qərar hər iki Tərəfin tə'yin etdiyi üzvlər tərəfindən həyata keçirilir. Bu Sazişin yerinə yetirilməsi ilə əlaqədar hər bir

istənilən fikir ayrılığı hər iki Tərəf arasında məsləhətləşmələr yolu ilə tənzimlənir. Lazım gələrsə, qərara Dövlət Statistika Komitəsinin sədri və Avrostatın Baş direktoru səviyyəsində baxıla bilər.

Maddə 7: Nəzərdən keçirmə

Bu Sazişdə dəyişikliklər və əlavələr bu Sazişin ayrılmaz hissəsi olacaq ayrıca Protokol vasitəsi ilə Tərəflərin qarşılıqlı razılığı əsasında edilə bilər.

Maddə 8: Qüvvəyə minmə

Bu Saziş onun qüvvəyə minməsi üçün lazımi məcburi prosedurаların hər iki Tərəfin yerinə yetirilməsini bildirən qarşılıqlı xəbərdarlıq edildiyi gün qüvvəyə minir.

Maddə 9: Müddət

Bu Sazişin fəaliyyət müddəti 5 ildir və əgər Tərəflər bu müddətin bitməsinə ən azı 6 ay qalmış Sazişin pozulması niyyətlərini yazılı surətdə bir-birinə bildirməzlərsə, onun müddəti 5 il də uzadılır.

22 noyabr 1999-cu ildə, iki nüsxə Azərbaycan və iki nüsxə ingilis dillərində olmaqla Lüksemburqda imzalanmışdır, mətnlərin hər ikisi eyni güvvəyə malikdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi adından** | **Avropa Statistika Bürosu adından** |
| **Arif Vəliyev** | **Ives Françet** |

## Əlavə 1

Xarici ticarət üzrə mə'lumatların təqdim edilməsi üçün istifadə edilən gaydalar aşağıdakından ibarətdir. Mə'lumatlar adətən maqnit lentlər və ya İnternet vasitəsilə göndərilir. Fayl format məhdudlaşmışdır və ASSII-də işlənir. Bu informasiyadan başqa, bizi (mə'lumatların daha yaxşı şərh edilməsi üçün) istifadə edilən metodologiya, məxfilik metodları və istifadə etmə qaydaları haqqında informasiya ilə də tə'min etmək lazımdır.

Hər bir yazı aşağıdakı rekvizitlərə malikdir:

| | |
|---|---|
| Mə'ruzəçinin kodu | Həmişə ISO kodu |
| Axın | I idxal üçün, E ixrac üçün, R reixrac üçün |
| İl | Məsələn, 1996 |
| Müddət | 01 (yanvardan) 12-dək (dekabr) aylar üçün<br>31 (I rüb) 34-dək (IV rüb) rüblər üçün |
| Mənşə ölkə | Bu xanadan idxal və reixrac üçün istifadə edilir və istehsal edən (mənşə) ölkəni göstərir. Mənşə ölkə ISO kodundan istifadə edilməklə kodaşdırılmalıdır. Əgər başqa kodlaşdırmadan istifadə edilirsə, Sizin kodlaşdırma ilə olan fərqləri göstərən fayl ilə bizi tə'min etməyi xahiş edirik (Bax, aşağıda misal 1 və 2). |
| Əmtəə kodu | Milli məhsulların kodu Əmtəələrin Harmonikləşdirilmiş Təsvirindən və Kodlaşdırma (HS) sistemindən götürülmüşdür. Ölkələrin çoxu HS-in genişləndirilmiş forması olan Kombinə edilmiş Nomenklatura (CN) kodlaşdırılmasından istifadə edirlər. |
| Dəyər | Ticarətin ABŞ dolları və ya Yevro ilə dəyəri (qoşulan məktubda seçimi göstərməyiniz xahiş olunur). |
| Birinci miqdar | Ikinci miqdar - bu iki xanadan idxal, ixrac və ya |

reixrac edilmiş malların miqdarının göstərilməsi üçün istifadə edilir; adətən bir miqdardan istifadə edilir, lakin bə'zi ölkələrdə onlar ikidir. Bu, beynəlxalq tövsiyənin olmasına baxmayaraq, həmişə dövlətin qərarıdır (Bax, aşağıdakı misal).

Birinci miqdarın vahidi — Bu xanada birinci miqdarın ölçüldüyü vahid göstərilir. Burada ISO, (KGM, LTR və s.) kodlarından istifadə edilmək arzu olunardı. Əgər milli kodlaşdırmadan istifadə edilmişsə, öz izahatınızın göndərilməsi xahiş olunur (Bax, misal 3).

İkinci miqdar — Əgər bu xana mövcuddursa, burada idxal, ixrac və ya reixrac edilmiş malların ikinci miqdar vahidləri ilə ölçülmüş miqdarı göstərilir; adətən bir miqdardan istifadə edilir, lakin bə'zi hallarda onlar iki ola bilər. Bu, beynəlxalq tövsiyənin olmasına baxmayaraq, həmişə dövlətin öz təşəbbüsüdür (Bax, aşağıda misal 3).

İkinji miqdar vahidi — Əgər ikinji miqdar varsa, bu xanalar ikinci miqdarın ölçüldüyü vahid göstərilir. Burada ISO (KGM, LTR) kodlarından istifadə edilməsi arzu olunardı. Əgər milli kodlaşdırmadan istifadə edilmişsə, öz izahatınızın göndərilməsi xahiş olunur (Bax, aşağıdakı misal).

Misal 1

- Axın = E (ixrac)
- -Mənşə ölkə = F1
- -Tə'yinat ölkəsi

Almaniyada Finlandiya mənşəli malların reixracını göstərir

Misal 2

- -Axın = E (ixrac)
- -Mənşə ölkə (boş xana mənşə ölkənin sizin ölkəniz olduğunu göstərir)
- -Tə'yinat ölkəsi = DE

Sizin ölkənizdən Almaniyaya malların normal ixracını göstərir

Misal 3 Migdar hagqında

Avropa Birliyi daxilində ticarət

- -kartof üçün yalnız birinci miqdar kq-dan istifadə edilir
- -diri heyvanlar üçün birinci miqdar vahidi kimi kq və ikinci miqdar vahidi kimi ədəd qəbul edilir.
- -şərab və digər alkoqollu içkilər üçün; birinci miqdar vahidi kimi kq və ikinci miqdar vahidi kimi litr qəbul edilir. Lakin tünd alkoqollu içkilər üçün ikinci miqdar vahidi xalis alkoqolun litri (100%) qəbul edilir.
- Tə'yinat ölkəsi = DE